# Görkəmli şəxsiyyətlər Şuşa haqqında

Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur.

***

Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycanın daim qorunması, saxlanılması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir.

**Heydər Əliyev,**
***Ümummilli lider***

Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir.

***

Şuşa şəhəri işğaldan 2020-ci il noyabrın 8-də azad edilmişdir. Şuşa şəhərini azad etmək böyük qəhrəmanlıq tələb edirdi. Şuşaya gələn hər bir insan bu sıldırım qayalara baxarkən görür ki, bu şəhəri, alınmaz qala sayılan şəhəri götürmək, azad etmək böyük qəhrəmanlıq, peşəkarlıq, şücaət, fədakarlıq tələb edir. Qəhrəman Azərbaycan əsgərləri qan tökərək, şəhid olaraq, sıldırım qayalara dırmaşaraq, demək olar ki, yüngül silahlarla, əliyalın Şuşanı düşmənin əlindən aldı və Azərbaycan bayrağını ucaltdı.

***

Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

***

Şuşada Müttəfiqlik Bəyannaməsini imzalayarkən əcdadımıza sadiqliyimizi nümayiş etdiririk və gələcək nəsillərə yol göstəririk.

**İlham Əliyev,**
***Azərbaycan Respublikasının Prezidenti***

Dünyada bir çox şəhərlər var ki, onlar müəyyən mədəni və siyasi səbəblərdən rəmzə çevrilmişdir. Onların adlarını dilə gətirmək kifayətdir ki, hər birimizin

yaddaşında həmin şəhərin obrazı yaransın. Hər bir azərbaycanlı üçün belə şəhər Şuşadır. Şuşa Azərbaycan mədəniyyətinin parlaq rəmzlərindən biri kimi olub və qalmaqdadır.

**Mehriban Əliyeva,**
***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti***

Bu gün təbii ki, fərqli bir həyəcanın, hisslərin içindəyik. Allaha şükür olsun ki, daha əvvəl verdiyimiz sözümüzü bu gün yerinə yetiririk. Qırx dörd günlük məlum müharibənin nəticəsində Qarabağ, Şuşa, çox şükürlər olsun ki, sahiblərinə qovuşdu və erməni zülmündən, erməni işğalından azad edildi.

***

Hazırda arxa fonda görünən bina, əslində, erməni zülmünün təəssüf ki, bu şah əsərləri nə hala gətirdiyinin bir ifadəsidir. Qardaşım da fon olaraq mətbuat konfransı üçün olduqca anlamlı bir yer seçib. Bir tərəfdə valilik binası, o biri tərəfdə də təəssüf ki, ermənilərin, necə deyərlər, yerlə-yeksan etdikləri bir bina...

**Rəcəb Tayyib Ərdoğan,**
***Türkiyə Prezidenti***

Pənah xan yaxın adamları ilə hərtərəfli məsləhətləşdikdən sonra Şuşa şəhərini bina etdirdi. Şəhərin bina olunacağı yerdə axar su və bulaq yox idi. İmtahan üçün bir neçə quyu qazdırdı. O quyulardan su çıxdıqdan sonra Şuşa şəhərinin (1750-ci ildə) binası qoyuldu.

**Mirzə Adıgözəl bəy Qarabaği,**
***tarixçi***

Şuşa qalası Cənubi Qafqazın gözəl və basəfa şəhərlərindən birisi hesab olunurdu və axır vaxtlarda artıq sürət ilə abad olmağa üz qoymuşdu. İçində çox gözəl imarətlər yapılmışdı. Yay fəslində altmış-yetmiş minə qədər nüfus bu şəhərə cəm olurdu, çünki Şuşanın abı havası xeyli saf və salamat olmağa görə, yaylaq mənzələsindəndir.

**Firudin bəy Köçərli,**
***ədəbiyyatşünas***

Uca dağ başında, mədəniyyət mərkəzlərindən və dəmir yolundan uzaq, laçın yuvasına bənzər xırdaca bir şəhər düşübdür. Dağın sağ və sol ətəklərindən köpüklənərək sürətlə axan iki çay, axırda iki mehriban qardaş kimi birləşib axaraq, düzlərdə yaşayan əhalinin bağlarını, əkinlərini sirab edirlər. Şəhər tamam qışı və baharın yarısını qara, dumana bürünmüş keçirib; axırda bu qara çadırşəbi atıb gözəl bir nazənin sənəm tək sürətinin parıltısını aləmə salıb, tamam yay istirahəti arzusunda olan isti yerlər əhalisini öz ağuşuna cəlb edir. Ətrafı səfalı meşələr, sərin bulaqlar, havası məsum uşaq qəlbi tək ipək. Bu şəhərin ömrü bir elə uzun deyilsə də, tarixi bir

şəhərdir. Buraya xanlar, bəylər, hətta şahzadələr gəlib-gedirlər. Burada padşah başı kəsilib, təpiklərdə paymal olub. Abu havasının şairəliyi əhalisinin təbiətinə də sirayət etdiyi üçün, o şəhər məşhur şairlərin, ədiblərin, musiqişünasların, xanəndələrin mədəni olmuşdur.

**Əbdürrəhim bəy Haqverdiyev,**
***yazıçı-dramatuq***

Dağ başında yazı-yayı yaşıllığa, payızı-qışı dumana və qara bürünmüş bir şəhər təsəvvür ediniz. Bu mənim şəhərimdir. Onun tarixi çox qədim deyildir: iki əsr əvvəl Pənahxan Cavanşir və Otuziki adlı elləri ilə bu yerə gəlib, şəhər salır, ətrafına qala tikdirib oturur. Adı Pənahabad, ya Şuşa qalasıdır. Yeni xanlıq, Qarabağ xanlığı meydana çıxır. Araz çayına qədər hökmü yeriyən bu xanlıq bütün İran şahlarının hücumuna baxmayaraq, çar istilasına qədər müstəqil olaraq yaşayır…

**Yusif VəzirÇəminzəminli,**
***yazıçı***

Pənah xan yaxın adamları ilə hərtərəfli məsləhətləşdikdən sonra Şuşa şəhərini bina etdirdi. Şəhərin bina olunacağı yerdə axar su və bulaq yox idi. İmtahan üçün bir neçə quyu qazdırdı. O quyulardan su çıxdıqdan sonra Şuşa şəhərinin (1750-ci ildə) binası qoyuldu. Mirzə Adıgözəl bəy Qarabaği, Tarixçi Yeni qala tikdirmək üçün Pənah xan məmurlarla, din xadimləri ilə və Qarabağa yaxşı bələd olan dünya görmüş yerli sakinlərlə xeyli məsləhətləşdikdən sonra qərara gəldi ki, "Biz gərək dağlar içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daim açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz (bir an belə) kəsilməməlidir". Xanın göndərdiyi bələdçilər ətrafı hərtərəfli öyrəndikdən sonra şad xəbərlə qayıdıb ona bildirdilər ki, yeni tikiləcək qalanın içində iki-üç bulaqdan başqa axar su yoxdur. Güman olunan yerlərdə quyu qazdılar və bu quyulardan bol su çıxdı. Bu xəbər Pənah xana çatdırıldı. Xan yaxın adamları ilə buraya gəldi, yerlə tanış olub, əzmlə qalanın binasını qoydu.

**Mirzə Camal Cavanşir Qarabaği,**
***tarixçi***

Axşam saatlarında Şuşanın qərb hissəsi cənnətin bir guşəsini xatırladır. İsveçrəni görənlər bu yeri onunla müqayisə edir. Ufa şəhərində "çin yaylağı " nı görənlər Şuşanın qərb hissəsini xan sarayının qürubdan əvvəl olan zöhrə zamanı ilə müqayisə edir. Və mən, Qafqaz yollarının landşaftını görən Allahın qulu təsdiq edirəm ki, şəhərin qərb hissəsinin qürub vaxtı sehri o qədər böyükdür ki, o insan qəlbini sevindirir. Nadir hallarda başqa yerlərdə insanın payına belə xoşbəxtlik düşə bilər.

**Cəlil Məmmədquluzadə,**
***yazıçı-dramaturq***

Qarabağ xanlığının baş vəziri Şuşa Azərbaycan xalqı üçün son dərəcə müqəddəs, ziyarətgah qədər əziz olan yurd yeridir. Çünki dünyanın bu füsunkar guşəsi bütün tarixi dövlərdə Azərbaycanın cənnəti olan Qarabağın sinəsində ona həyat verən bir ürək kimi döyünmüş, aranlı-yaylaqlı bütün Qarabağın mərkəzi olmuşdur.

**Yaqub Mahmudov,**
***Akademik***

***Şuşa!*** Bu ad qəlbimdə o qədər şirinli-acılı xatirələr oyadır, hisslər, duyğular ləpələndirir ki, Şuşalı günlərimin – Şuşalı günlərimizin hansı anını daha çox qabartmaqda çətinlik çəkirəm. Və bu an Şuşa dahi rəssamın çəkdiyi böyük, əzəli və ədəbi bir tablo kimi gözlərim önündə durur.

**Mustafa Çəmənli,**
***Əməkdar mədəniyyət işçisi***

Azərbaycanın emblemi adlandırılan Şuşa həm də Yer üzünün gözəllik sərgisi, mərdlik, cəsarət, hünər, qəhrəmanlıq meydanı, sözün, muğamın, musiqinin beşiyidir. Analoqu olmayan səslər muzeyidir. Vaxtı ilə dünyanın müxtəlif ölkələrindən gələn səyyahlar bu şəhəri haqqında yazanda mütləq onu Yer üzününü canlı muzeyi adlandırırdılar.

**Flora Xəlilzadə,**
***Əməkdar jurnalist***

Şuşada Qafqazın başqa yerlərində olmayan, Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr və qədim Romadakıları xatırladan gözəl hamamlar var. Bütün bunlar onun qədim şəhər olması haqqında fikir söyləməyə imkan verir.

**Robert Burter,**
***ingilis səyyahı***

Əgər oxumursansa, deməli, şuşalı deyilsən.

**Sergey Yesenin,**
***rus şairi***

Şuşa Qarabağ xanlığının baş şəhəridir, olduqca yaxşı möhkəmləndirilmiş bir yerdir Bu şəhərin evləri düzgün formalı, qəşəng və hündür olub, çoxsaylı və gözəl pəncərələrlə işıqlandırılır. Qayalıqlar qoynunda yerləşən bu şəhər elə həmin qayalıqlardan götürülmüş daşlardan tikilmişdir. Şəhərin bütün küçələrinə enli daş plitələr döşənmiş, evlərin damları tirlərdən düzəldilmişdir. Onu iki tərəfdən çılpaq qayalar, digəriki tərəfdən isə tikililər, divarlar və qüllələr qoruyur. Şuşa şəhəri Zaqafqaziyanın mənini olduğum digər şəhərlərindən tamamilə fərqlənir. Yalnız ötəri baş çəkdiyim İrəvan. Naxçıvan və Yelizavetpol özlərində Şərqin xarakterik əlamətlərini yaşadır. Bu şəhərlərdə evlər azdır, alçaqdır, əksəriyyəti torpaqdan və

kərpicdən tikilmişdir və ətrafdakı bağların yaşıllıqları arasında itib-batan nadir pəncərələri və alçaq taxtapuşları ilə fərqlənir.

***

Şuşa üzərində yerləşdiyi sıldırım qayaların daşlarından tikilmişdir. Küçələrə hər yerdə böyük sal daşlar döşənmişdir. Evlərin damları nazik taxtadan -Avropasayağı düzəldilmişdir.

**Vasili Vereşşagin,**
***rus rəssamı***

1843-cü ildə Şuşada yol yoldaşım cənab Aderkas qarabağlı İbrahimxəlil xanın nəvəsi, general-mayor Cəfərqulu xan Cavanşirə təqdim edilmişdi və onun tərəfindən çay süfrəsinə dəvət olunmuşdu. O, burada Şərq və Avropa adət-ənənələrinin və həyat tərzinin qəribə qarışığını gördü. Ev görünüşünə görə Şuşada varlı tatarların (azarbaycanlıların) evlərindən heç nə ilə fərqlənmirdi, lakin içəridə bütün Avropa rahatlığına xas qaydaya salınmış zal var idi, divarlarda güzgülər, tavanda çil-çıraqlar, divarların önündə bahalı qırmızı taxtadan düzəldilmiş mebel, divanlar, kreslolar, stollar, stullar... Divarlara divar kağızı çəkilmiş, rəsmlərlə bəzədilmişdi, bir sözlə, bütün əşyalar Avropa səliqəsi və dəbdəbəsində idi. Xan cənab Aderkası və başqa avropalıları Avropa qaydası ilə qəbul etdi. O, gözəl, boy-buxunlu, nəcib və əsilzadə siması ilə adamı cəlb edən, məğrur görkəmli, qeyri-adi qüvvəyə malik bir kişidir. Onlar çay süfrəsi arxasında oturdular. Şərqli qonaqlar da gəldilər, öz adətlərinə görə divanda bardaş quraraq yayxanıb, tənbəki çəkir, çay içirdilər və söhbətdə yalnız, onlara sual verəndə iştirak edirdilər. Xidmətçilər Avropa livreyalarında (xüsusi biçimli zərbaftalı paltar) çay, pirojna, mürəbbə, şərbət və dondurmu verirdilər. Başqa xidmətçilər tatar paltarları və çərkəzi çuxa geyinmişdilər. Musiqili bahalı Vyana saatı frenelladan uvertüra çalırdı. Cəfərin zəngin hərəmxanası və çoxlu uşağı var, lakin qonaqlar onları görmədilər.

**Baron Fon Qatsqauzen,**
***alman səyyahı***

Şuşada Qafqazın başqa şəhərlərində olmayan, Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr və qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları var. Bütün bunlar onun qədim şəhər olması haqqında fikir söyləməyə imkan verir.

**Robert Burter,**
***ingilis səyyahı***

1752-ci ildə Pənah xan xoş bir gündə Şuşa şəhərinin təməlini qoydu. Şuşa qalasının inşasında ətraf kəndlərin əhalisi, mahalların bəyləri, yaxın-uzaq ellərin başçıları bir yerdə çalışaraq beş arşın hündürlüyündə, iki arşın enində bir divar

hördülər. Şuşa qalasının divarlarından nə top gülləsi də keçməzdi. Çünki divar daş və əhənglə bərkidilmişdi.Şuşa şəhəri bina olandan sonra Pənah xan Şahbulaq qalasının əhalisini, bəzi Qarabağ və başqa kənd adamlarını köçürüb Şuşa şəhərinə gətirdi, onlara burada yer verdi... Şuşanın məhəllələri isə bunlardır: Mehrili, Qazançılı, Əylisli, Çiləbörd, Dərə, Aşağı məhəllə, Qurdlar, Culfa, Quyuluq, Çuxur məhəllə, Hacı Yusifti, Merdinli, Cuhudlar, Saatlı, Mamayı, Xoca Mərcanlı, Çölqala və Hamamarası.

**Mirzə Yusif Nersesov Qarabaği (erməni),**
***"Tarixi-Safi"(1853-cü il)***

Mən dəfələrlə demişəm ki, Ermənistanla Azərbaycan arasında nəinki sülh sazişinin, həm də bütün əlaqələrin – iqtisadi, mədəni və ümumiyyətlə, dostluq əlaqələrinin qurulmasının tərəfdarıyam. Ermənistan və Azərbaycan iki kiçik respublikadır, əlbəttə, onlara mehriban qonşuluq münasibətləri gərəkdir. Mənə elə gəlir ki, son nəticədə hər şey buna doğru gedir. Ermənistan tərəfi etiraf etməlidir ki, Qarabağ Azərbaycanın bir hissəsidir. Bunu dərk etməsək heç nə alınmayacaq. Vəziyyətin incəliyi ondan ibarətdir ki, Ermənistan faktiki olaraq heç vaxt rəsmi səviyyədə bu faktı inkar etməyib. Paşinyan bu yaxınlarda hətta az qala açıq şəkildə bildirib ki, Qarabağ heç zaman ermənilərin olmayıb. Rusiya da inkar etmir ki, Qarabağ Azərbaycanın bir hissəsidir. De-fakto nə varsa, de-yure təsdiq edilməlidir. Ermənilərə bununla barışmaq lazımdır.

**Karen Şahnazarov**,
***Erməni əsilli rusiyalı rejissor***